# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Elektron icra” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I); 2024, № 2, maddə 241; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 may tarixli 137 nömrəli və 4 iyun tarixli 167 nömrəli qərarları) ilə təsdiq edilmiş “Elektron icra” informasiya sistemi haqqında Əsasnamə”nin 6.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. 6.1.1-ci yarımbəndə “sənədlərinin” sözündən sonra “(“Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tələbkar tərəfindən icraya yönəldilən icra sənədləri istisna olmaqla)” sözləri əlavə edilsin.

2. 6.1.1-1-ci yarımbəndə (birinci halda) “informasiya” sözündən əvvəl “İcra haqqında” Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq,” sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 6.1.1-2-ci yarımbənd əlavə edilsin:

“6.1.1-2. xüsusi icra məmurları tərəfindən icra sənədlərinin qeydiyyatının aparılması, barəsində icra hərəkətləri həyata keçirilən əmlakın uçotunun aparılması, icra icraatı ilə

bağlı qərarların, aktların, protokolların və digər sənədlərin informasiya sisteminə daxil edilməsi;”.

4. 6.1.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

“6.1.6. dövlət icra məmurları və xüsusi icra məmurları tərəfindən icra icraatı ilə bağlı sənədlərin hazırlanması və göndərilməsi;”.

5. 6.1.16-cı yarımbəndə (birinci halda) “barədə” sözündən sonra “dövlət icra məmurunun və xüsusi” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 30 ” “ iyun ” 2026-cı il

№ 201